# Xüsusi iqtisadi zonalar haqqında

# Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması və idarə edilməsi ilə bağlı hüquqi və iqtisadi münasibətləri tənzimləyir, həmin zonalarda sahibkarlıq fəaliyyətinin təşkili qaydalarını müəyyənləşdirir.

## *Maddə 1. Əsas anlayışlar*

1.0. Bu Qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. xüsusi iqtisadi zona — sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi hüquqi rejimin tətbiq edildiyi Azərbaycan Respublikası ərazisinin məhdud hissəsi;

1.0.2. xüsusi hüquqi rejim — sahibkarlıq fəaliyyətinin güzəştli şərtlərlə həyata keçirilməsi üçün xüsusi iqtisadi zona ərazisində onun rezidentlərinə tətbiq edilən rejim;

1.0.3. gömrük ərazisi — Azərbaycan Respublikasının quru ərazisindən, daxili sularından, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsindən (o cümlədən orada yerləşən adalar, süni adalar, qurğular və tikililər) və onların üzərindəki hava məkanından ibarət olan ərazi;

1.0.4. xüsusi iqtisadi zonanın rezidentləri — Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq dövlət qeydiyyatına alınmış, xüsusi iqtisadi zona ərazisində sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün bu Qanunla müəyyən edilmiş qaydada xüsusi iqtisadi zonanın qeydiyyat şəhadətnaməsini almış hüquqi və fiziki şəxslər;

1.0.5. xüsusi iqtisadi zonanın yaradılması və fəaliyyəti sahəsində səlahiyyətli orqan (bundan sonra — səlahiyyətli orqan) — Azərbaycan Respublikasında xüsusi iqtisadi zonanın yaradılması və fəaliyyəti ilə əlaqədar dövlət siyasətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı;

1.0.6. xüsusi iqtisadi zonanın administrasiyası — xüsusi iqtisadi zonanın fəaliyyət müddətində onun ərazisində yaradılan səlahiyyətli orqanın yerli qurumu;

1.0.7. xüsusi iqtisadi zonanın operatoru (bundan sonra — operator) — idarəetmə sazişi çərçivəsində xüsusi iqtisadi zonanın idarə olunması və inkişaf etdirilməsinə cavabdehlik daşıyan, bu sahədə böyük təcrübəyə malik olan şirkət;

1.0.8. idarəetmə sazişi — xüsusi iqtisadi zonanın idarə olunması və inkişaf etdirilməsi üçün səlahiyyətli orqanla operator arasında imzalanan saziş.

## *Maddə 2. Xüsusi iqtisadi zonanın yaradılmasının məqsədi*

Xüsusi iqtisadi zonanın yaradılmasının məqsədi xüsusi hüquqi rejimin və müasir texnologiyaların tətbiqi əsasında rəqabət qabiliyyətli yeni istehsal və xidmət sahələrinin təşkili yolu ilə Azərbaycan Respublikasında sahibkarlığın və bütövlükdə iqtisadiyyatın inkişafını sürətləndirməkdir.

## *Maddə 3. Xüsusi iqtisadi zonalar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi*

3.1. Azərbaycan Respublikasının xüsusi iqtisadi zonalar haqqında qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

3.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu Qanundan fərqli qaydalar müəyyən edildikdə, beynəlxalq müqavilələrin normaları tətbiq edilir.

## *Maddə 4. Xüsusi iqtisadi zonada sahibkarlıq fəaliyyəti*

4.1. Xüsusi iqtisadi zonada Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən, yüksək rəqabət qabiliyyətli məhsulların istehsalı və xidmətlərin göstərilməsi ilə bağlı sahibkarlıq fəaliyyəti həyata keçirilir.

4.2. Xüsusi iqtisadi zonada sahibkarlıq fəaliyyətinin aşağıdakı növləri qadağan edilir:

4.2.1. qanunvericiliyə əsasən mülki dövriyyəsi qadağan edilmiş və ya məhdudlaşdırılmış əşyaların istehsalı, saxlanılması və satışı, yerin təkindən faydalı qazıntıların çıxarılması, habelə qiymətli metalların, neftin, neft məhsullarının və təbii qazın hasilatı və emalı;

4.2.2. teleradio yayımı fəaliyyəti;

4.2.3. spirtli içkilərin və tütün məmulatlarının istehsalı.

## *Maddə 5. Xüsusi iqtisadi zonanın yaradılması*

5.1. Xüsusi iqtisadi zonanın yaradılması haqqında qərar müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilir. Qərarda xüsusi iqtisadi zonanın yaradılmasının məqsədi, təyinatı, fəaliyyət müddəti və maliyyələşdirilməsi mənbələri müəyyən edilir.

5.2. Səlahiyyətli orqanın xüsusi iqtisadi zonanın yaradılması haqqında təklifinə aşağıdakı sənədlər əlavə edilir:

5.2.1. xüsusi iqtisadi zonanın yaradılmasının iqtisadi əsaslandırılması;

5.2.2. xüsusi iqtisadi zonanın müvafiq ərazisinin iqtisadi, sosial və ekoloji şəraitinin təhlili, maddi və əmək resursları, kommunikasiyalar və digər infrastrukturla təminatı imkanları barədə məlumat;

5.2.3. yaradılması təklif olunan xüsusi iqtisadi zonanın Əsasnaməsinin layihəsi;

5.2.4. xüsusi iqtisadi zonada həyata keçiriləcək sahibkarlıq fəaliyyətinin növləri və onların xüsusiyyətləri;

5.2.5. xüsusi iqtisadi zonanın ərazi sərhədlərinin dəqiq təsviri və ərazinin planı, yaradılması təklif olunan xüsusi iqtisadi zonada yerləşən torpaqların tərkibi haqqında məlumat, torpaq sahələrinin mülkiyyətçilərinin və torpaq istifadəçilərinin siyahısı;

5.2.6. xüsusi iqtisadi zonanın yaradılması ilə əlaqədar tədbirlər planı.

5.3. Səlahiyyətli orqan yaradılacaq hər bir xüsusi iqtisadi zonanın Əsasnaməsinin layihəsini hazırlayır və təsdiq olunmaq üçün müvafiq icra hakimiyyəti orqanına təqdim edir. Əsasnamədə xüsusi iqtisadi zonanın vəzifələri, həyata keçiriləcək sahibkarlıq fəaliyyəti növləri, müvafiq dövlət orqanları və bələdiyyələrlə qarşılıqlı münasibətləri və digər şərtlər müəyyən edilir.

## *Maddə 6. Xüsusi iqtisadi zonanın ərazisinin müəyyənləşdirilməsi*

Xüsusi iqtisadi zonanın ərazisi onun fəaliyyəti üçün zəruri olan infrastrukturun (yol, elektrik enerjisi, qaz, su təminatı və s.), işçi qüvvəsinin və digər amillərin mövcudluğu, ərazinin inkişaf perspektivi qiymətləndirilməklə müəyyən edilir.

### *Maddə 7. Xüsusi iqtisadi zonanın maliyyələşdirilməsi*

Xüsusi iqtisadi zonanın maliyyələşdirilməsi xüsusi iqtisadi zonanın fəaliyyətindən əldə edilən gəlirlər, habelə qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına həyata keçirilir.

### *Maddə 8. Xüsusi iqtisadi zonanın ləğv edilməsi*

8.1. Xüsusi iqtisadi zona onun yaradılması haqqında qərarda müəyyən edilmiş müddət bitdikdən sonra ləğv edilir. Müvafiq icra hakimiyyəti orqanının qərarı ilə xüsusi iqtisadi zonanın müəyyən edilmiş fəaliyyət müddəti uzadıla bilər.

8.2. Xüsusi iqtisadi zona onun yaradılması haqqında qərarda müəyyən edilmiş müddətdən əvvəl müvafiq icra hakimiyyəti orqanının qərarı ilə aşağıdakı hallarda ləğv edilə bilər:

8.2.1. dövlətin maraqları, təhlükəsizliyi, müdafiə qabiliyyəti ilə bağlı zərurətdən irəli gələn hallarda;

8.2.2. xüsusi iqtisadi zonanın yaradılması haqqında müvafiq qərar qəbul edildikdən sonra keçən 3 il ərzində:

- sahibkarlıq fəaliyyəti üçün heç bir razılaşma bağlanmadıqda və ya əvvəl bağlanmış razılaşmalar qüvvədən düşdükdə;
- xüsusi iqtisadi zonanın rezidentləri tərəfindən sahibkarlıq fəaliyyəti həyata keçirilmədikdə.

8.3. Xüsusi iqtisadi zonanın ləğv edilməsi ilə bağlı həyata keçirilən tədbirlər müvafiq qanunvericiliklə müəyyən edilir.

8.4. Xüsusi iqtisadi zonanın müəyyən edilmiş müddətdən əvvəl ləğv edilməsi haqqında qərar onu qəbul etdikdən 1 ay sonra qüvvəyə minir.

### *Maddə 9. Xüsusi iqtisadi zonanın idarə olunması və inkişafı*

9.1. Xüsusi iqtisadi zona yaradıldıqdan sonra səlahiyyətli orqan onun idarə olunmasını və inkişafını təmin etmək məqsədilə bu Qanunla müəyyən edilmiş tədbirləri həyata keçirir.

9.2. Xüsusi iqtisadi zonanın idarə olunması və inkişaf etdirilməsi xüsusi iqtisadi zonanın administrasiyası və müsabiqə yolu ilə seçilmiş operator tərəfindən həyata keçirilir.

9.3. Müsabiqənin keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Səlahiyyətli orqanla bağlanılan idarəetmə sazişində bu Qanunun müddəaları nəzərə alınmaqla xüsusi iqtisadi zonanın idarə və inkişaf etdirilməsi üzrə tərəflərin hüquqları və vəzifələri, idarəetmənin şərtləri, o cümlədən xüsusi iqtisadi zonanın iqtisadi inkişaf proqramı, maliyyələşməsi, sazişin müddəti, xüsusi iqtisadi zonanın infrastruktur obyektlərinin istismarının, onlara münasibətdə əmlak hüquqlarının həyata keçirilməsi qaydası və digər şərtlər müəyyən edilir.

### *Maddə 10. Səlahiyyətli orqanın funksiyaları*

10.0. Xüsusi iqtisadi zonanın yaradılması və fəaliyyəti ilə əlaqədar səlahiyyətli orqan aşağıdakı funksiyaları həyata keçirir:

10.0.1. xüsusi iqtisadi zonanın yaradılması və fəaliyyəti sahəsində vahid dövlət siyasətinin formalaşmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

10.0.2. xüsusi iqtisadi zonanın yaradılması və vaxtından əvvəl ləğv edilməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanına təkliflər verir;

10.0.3. xüsusi iqtisadi zonada fəaliyyətin təşkili ilə bağlı operatora lazımi köməklik göstərir;

10.0.4. səlahiyyətləri daxilində xüsusi iqtisadi zonanın fəaliyyətini tənzimləyən normativ hüquqi aktları hazırlayır və təsdiq edir;

10.0.5. müsabiqə yolu ilə operatoru seçir və onunla idarəetmə sazişi bağlayır;

10.0.6. xüsusi iqtisadi zonanın fəaliyyətinin tənzimlənməsinə dair təkliflər hazırlayır;

10.0.7. xüsusi iqtisadi zonada inhisarçılığa yol verilməməsi üçün zəruri tədbirlər görür;

10.0.8. xüsusi iqtisadi zonanın fəaliyyəti barədə illik hesabat hazırlayır və müvafiq icra hakimiyyəti orqanına təqdim edir;

10.0.9. qanunvericiliklə və idarəetmə sazişi ilə müəyyən edilmiş digər funksiyaları həyata keçirir.

## *Maddə 11. Xüsusi iqtisadi zonanın administrasiyasının funksiyaları*

11.0. Xüsusi iqtisadi zonanın administrasiyası aşağıdakı funksiyaları həyata keçirir:

11.0.1. xüsusi iqtisadi zonanın ərazisində dövlət mülkiyyətində olan torpaq sahələrini operatora və ya operatorun təklifi əsasında xüsusi iqtisadi zonanın rezidentlərinə icarəyə verir;

11.0.2. xüsusi iqtisadi zonanın rezidentlərinin qeydiyyatını və reyestrini aparır, onlara xüsusi iqtisadi zonanın qeydiyyat şəhadətnaməsini verir;

11.0.3. xüsusi iqtisadi zonanın müvafiq infrastrukturla, o cümlədən nəqliyyat, kommunikasiya xətləri və kommunal xidmətləri ilə təminatı üçün müvafiq təşkilatların fəaliyyətini əlaqələndirir;

11.0.4. səlahiyyətli orqanla operator arasında bağlanmış idarəetmə sazişinə əməl olunmasına nəzarət edir;

11.0.5. xüsusi iqtisadi zonanın rezidentlərinin fəaliyyəti haqqında hesabat-statistik məlumatlar alır, onların fəaliyyətinin monitorinqini həyata keçirir;

11.0.6. xüsusi iqtisadi zonanın rezidentləri və onlarla operator arasında mübahisələrin danışıqlar yolu ilə həllinə kömək edir;

11.0.7. qanunvericiliklə və idarəetmə sazişi ilə müəyyən edilmiş digər funksiyaları həyata keçirir.

## *Maddə 12. Operatorun hüquq və vəzifələri*

12.1. Səlahiyyətli orqanla bağlanmış idarəetmə sazişi çərçivəsində operator xüsusi iqtisadi zonanın fəaliyyətinə görə məsuliyyət daşıyır.

12.2. Operatorun hüquqları aşağıdakılardır:

12.2.1. səlahiyyətli orqanla bağlanmış idarəetmə sazişinə əsasən xüsusi iqtisadi zonanın hüdudlarında idarəetməni və təsərrüfat fəaliyyətini təşkil etmək;

12.2.2. xüsusi iqtisadi zonada kommunal, nəqliyyat, sosial və digər infrastruktur obyektlərinə investisiya qoymaq, həmin investisiyalardan və xüsusi iqtisadi zonanın idarə edilməsindən gəlir əldə etmək;

12.2.3. xüsusi iqtisadi zonanın kənar infrastrukturla, o cümlədən nəqliyyat xəttləri və kommunal xidmətlərlə təmin edilməsi üçün müvafiq təşkilatlarla qarşılıqlı əlaqədə fəaliyyət göstərmək, xüsusi iqtisadi zonanın inkişaf etdirilməsi məqsədilə zəruri tədbirlərin həyata keçirilməsi üçün müqavilələr bağlamaq;

12.2.4. qanunvericiliklə və idarəetmə sazişi ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

12.3. Operatorun vəzifələri aşağıdakılardır:

12.3.1. xüsusi iqtisadi zonanı inkişaf etdirmək;

12.3.2. bu Qanuna, xüsusi iqtisadi zonanın xüsusi hüquqi rejimini tənzimləyən digər normativ hüquqi aktlara və səlahiyyətli orqanla bağlanmış sazişin şərtlərinə əməl etmək;

12.3.3. xüsusi iqtisadi zonanın administrasiyası ilə birlikdə xüsusi iqtisadi zonanın rezidentlərinin bu Qanuna, xüsusi iqtisadi zonanın xüsusi hüquqi rejimini tənzimləyən digər normativ hüquqi aktlara və onlarla bağlanmış sazişin şərtlərinə, digər aidiyyəti qanunvericiliyə əməl etmələrini təmin etmək;

12.3.4. xüsusi iqtisadi zonada sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi məqsədilə zəruri sənədlərin, o cümlədən xüsusi iqtisadi zonanın qeydiyyat şəhadətnaməsinin alınması üçün xüsusi iqtisadi zonanın rezidentlərinin maraqlarını etibarnamə əsasında müvafiq dövlət orqanlarında təmsil etmək;

12.3.5. xüsusi iqtisadi zonada səlahiyyətli orqanın, xüsusi iqtisadi zonanın administrasiyasının, habelə digər aidiyyəti dövlət orqanlarının qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri şərait yaratmaq;

12.3.6. səlahiyyətli orqanla bağlanılmış idarəetmə sazişinə əsasən zəruri infrastrukturun yaradılması, obyektlərin və xidmətlərin təmin olunması üçün işlər görmək;

12.3.7. xüsusi iqtisadi zonanın inkişafı və fəaliyyəti barədə onun administrasiyasına hesabatlar, o cümlədən kənar audit hesabatlarını təqdim etmək;

12.3.8. qanunvericiliklə və idarəetmə sazişi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

12.4. Operator xüsusi iqtisadi zonanın ərazisində rezident kimi fəaliyyət göstərə və rezidentlərə tətbiq edilən güzəştlərdən istifadə edə bilməz.

## *Maddə 13. Xüsusi iqtisadi zonanın rezidentlərinin fəaliyyəti*

13.1. Xüsusi iqtisadi zonada fəaliyyət göstərmək üçün hüquqi və fiziki şəxslər səlahiyyətli orqan tərəfindən təsdiq edilmiş formada operatorla niyyət sazişi bağlamalı və xüsusi iqtisadi zonanın administrasiyasında bu Qanunla müəyyən edilmiş qaydada qeydiyyatdan keçib, xüsusi iqtisadi zonanın qeydiyyat şəhadətnaməsini almalıdırlar. Səhmləri və ya payları 100 (yüz) faiz dövlətə məxsus olan hüquqi şəxslər xüsusi iqtisadi zonanın rezidenti kimi qeydiyyatdan keçə bilməzlər.

13.2. Hüquqi və fiziki şəxslər operatorla niyyət sazişini bağladıqdan sonra xüsusi iqtisadi zonanın administrasiyasına qeydiyyatdan keçmək üçün ərizə və ona əlavə edilən sənədləri təqdim etməlidirlər. Ərizə və ona əlavə edilən sənədlər qanunvericiliklə müəyyən edilmiş

qaydada operator vasitəsilə də təqdim oluna bilər. Ərizənin forması və ona əlavə edilən sənədlərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

13.3. Xüsusi iqtisadi zonanın administrasiyası 10 gün ərzində ərizəyə və ona əlavə edilən sənədlərə baxır və qanunvericiliyin tələblərinə uyğun olaraq müraciət edənə xüsusi iqtisadi zonanın qeydiyyat şəhadətnaməsini, yaxud qeydiyyata alınmaq üçün imtinaya səbəb olmayan çatışmazlıqların aradan qaldırılması və ya qeydiyyata alınmaqdan imtina (imtinaya səbəb olmuş hallar göstərilməklə) barədə yazılı məlumat verir.

13.4. Təqdim olunmuş sənədlər Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və digər qanunvericilik aktlarına zidd olduqda qeydiyyata almaqdan imtina edilir. İmtina ilə əlaqədar yuxarı orqana və ya məhkəməyə şikayət verilə bilər.

13.5. Təqdim edilmiş sənədlərdə dövlət qeydiyyatına alınması üçün imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, xüsusi iqtisadi zonanın administrasiyası həmin sənədləri müraciət etmiş şəxsə bu çatışmazlıqların aradan qaldırılması üçün qaytarır. İmtinaya səbəb olmayan bütün çatışmazlıqlar aşkar edilməli və aradan qaldırılması üçün müraciət edənə təqdim edilməlidir.

13.6. Hüquqi və fiziki şəxslər xüsusi iqtisadi zonanın qeydiyyat şəhadətnaməsini aldığı gündən xüsusi iqtisadi zonanın rezidenti hesab edilir.

13.7. Xüsusi iqtisadi zonanın rezidentləri qeydiyyat şəhadətnaməsini aldıqdan sonra bu Qanunla müəyyən edilmiş qaydada sahibkarlıq fəaliyyətinin aparılması məqsədilə səlahiyyətli orqan tərəfindən müəyyən edilmiş formada operatorla saziş bağlayır.

13.8. Xüsusi iqtisadi zonanın rezidentinə qeydiyyat şəhadətnaməsi verildiyi, yaxud rezidentin qeydiyyatının ləğv edildiyi gündən sonrakı iş günü ərzində xüsusi iqtisadi zonanın administrasiyası bu barədə müvafiq icra hakimiyyəti orqanlarına məlumat verməlidir.

13.9. Xüsusi iqtisadi zonanın rezidentləri qanunvericiliklə qadağan olunmayan fəaliyyət növləri ilə məşğul ola və xüsusi hüquqi rejim çərçivəsində təmin olunan bütün güzəştlərdən istifadə edə bilərlər.

13.10. Xüsusi iqtisadi zonanın rezidentlərinə xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərini həyata keçirmək üçün lisenziyalar Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq verilir.

13.11. Xüsusi iqtisadi zonanın rezidentlərinin vəzifələri aşağıdakılardır:

13.11.1. öz fəaliyyətini bu Qanuna, xüsusi iqtisadi zonanın xüsusi hüquqi rejimini tənzimləyən digər normativ hüquqi aktlara və operatorla bağlanmış sazişə uyğun olaraq təşkil etmək;

13.11.2. vergi, gömrük və digər qanunvericilik aktlarına, habelə bu Qanuna müvafiq olaraq müəyyən edilmiş hesabatları tərtib etmək və müəyyən edilmiş qaydada aidiyyəti üzrə təqdim etmək.

13.12. Xüsusi iqtisadi zonanın rezidentləri bu Qanunun, habelə xüsusi iqtisadi zonanın xüsusi hüquqi rejimini tənzimləyən digər normativ hüquqi aktların tələblərini dəfələrlə və ya kobudcasına pozduqda onların qeydiyyatı məhkəmə tərəfindən ləğv oluna bilər. Xüsusi iqtisadi zonanın rezidentinin qeydiyyatının ləğv edilməsi barədə iddianı xüsusi iqtisadi zonanın administrasiyası qaldırır.

### *Maddə 14. Xüsusi iqtisadi zonanın rezidentləri tərəfindən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi*

14.1. Xüsusi iqtisadi zonanın rezidenti xüsusi iqtisadi zona daxilində sahibkarlıq fəaliyyətini onun operatoru ilə bağlanmış sazişə uyğun olaraq həyata keçirir.

14.2. Xüsusi iqtisadi zonanın rezidentləri xüsusi iqtisadi zonadan kənarda öz sahibkarlıq fəaliyyətini qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirə bilərlər. Xüsusi iqtisadi zonanın rezidentləri xüsusi iqtisadi zonadan kənarda yalnız müstəqil balansa malik olan filiallarını və nümayəndəliklərini aça bilərlər. Həmin filial və nümayəndəliklərə xüsusi iqtisadi zonanın xüsusi rejimi tətbiq edilmir.

14.3. Xüsusi iqtisadi zonanın ərazisində ayrıca hüquqi şəxs yaratmadan filiallar, nümayəndəliklər vasitəsilə təsərrüfat fəaliyyəti ilə məşğul olan rezidentlər xüsusi iqtisadi zona daxilində fəaliyyət üzrə xüsusi hüquqi rejim çərçivəsində müəyyənləşmiş güzəştlərdən istifadə hüququna malikdirlər.

14.4. Xüsusi iqtisadi zonanın ərazisində ayrıca hüquqi şəxs yaratmadan filiallar, nümayəndəliklər vasitəsilə təsərrüfat fəaliyyəti ilə məşğul olan rezidentlər maliyyə-təsərrüfat fəaliyyəti barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş formada balans tərtib edirlər. Balansın tərtib edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir.

14.5. Xüsusi iqtisadi zonanın rezidenti operatorla bağlanmış sazişdə həyata keçirilməsi nəzərdə tutulan işlərə bir il müddətində başlamadıqda, torpaq sahəsinin icarə müqaviləsi və həmin rezidentlərin qeydiyyatı xüsusi iqtisadi zonanın administrasiyası tərəfindən, sahibkarlıq fəaliyyətinin aparılması haqqında saziş isə operator tərəfindən ləğv olunur.

## *Maddə 15. Xüsusi iqtisadi zonanın ərazisində torpaq sahələrinin ayrılması və onlardan istifadə*

15.1. Xüsusi iqtisadi zonanın ərazisində dövlət mülkiyyətində olan torpaq sahələri üzərində dövlət idarəetməsi xüsusi iqtisadi zonanın fəaliyyət müddətində xüsusi iqtisadi zonanın administrasiyası tərəfindən həyata keçirilir.

15.2. Xüsusi iqtisadi zonada dövlət mülkiyyətində olan torpaq sahəsinin icarə müqaviləsi xüsusi iqtisadi zonanın administrasiyası ilə operator arasında və ya operatorun təklifi əsasında xüsusi iqtisadi zonanın administrasiyası ilə onun rezidenti arasında bağlanılır. Operator icarəyə götürülmüş torpaq sahəsini rezidentlərə subicarəyə verir. İcarə müqaviləsinin nümunəvi forması səlahiyyətli orqan tərəfindən müəyyən edilir.

15.3. Xüsusi iqtisadi zonanın ərazisində torpaqlar xüsusi iqtisadi zonanın rezidentlərinə tərəflərin razılığı ilə müəyyən edilən müddətə icarəyə verilir. Xüsusi iqtisadi zonanın rezidentlərinə icarəyə verilmiş dövlət mülkiyyətində olan torpaq sahələrinin rezidentlər tərəfindən digər şəxslərə subicarəyə verilməsinə xüsusi iqtisadi zona rejiminin qüvvədə olduğu müddətdə yol verilmir.

## *Maddə 16. Xüsusi iqtisadi zonanın fəaliyyətinə dövlət nəzarəti*

16.1. Xüsusi iqtisadi zonada icra və yerli özünüidarəetmə (bələdiyyə) orqanları öz səlahiyyətlərini xüsusi iqtisadi zona haqqında qanunvericiliyin tələblərini nəzərə almaqla həyata keçirirlər.

16.2. Xüsusi iqtisadi zonanın rezidentlərinin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

16.3. Xüsusi iqtisadi zonada fəaliyyət göstərən kredit təşkilatlarının fəaliyyətinə nəzarət Azərbaycan Respublikasının bank qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

### *Maddə 17. Xüsusi iqtisadi zonanın gömrük rejimi*

17.1. Xüsusi iqtisadi zonanın rezidentlərinə qanunvericiliklə nəzərdə tutulmuş qaydada güzəştli gömrük rejimi tətbiq olunur.

17.2. Xüsusi iqtisadi zonada istehsal və ya emal olunmuş malları Azərbaycan Respublikasının qalan ərazisinə ixrac edən xüsusi iqtisadi zonanın rezidentlərinə güzəştli gömrük rejimi tətbiq edilmir.

17.3. Güzəştli gömrük rejimi zamanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə idxalı və ixracı qadağan edilməmiş bütün malların xüsusi iqtisadi zonaya aşağıdakı daxil olma və çıxma qaydaları tətbiq olunur:

17.3.1. mallar (aksizli mallardan başqa) Azərbaycan Respublikasının gömrük ərazisi xaricindən xüsusi iqtisadi zonaya idxal edilərkən idxal rüsumu və əlavə dəyər vergisi tutulmur;

17.3.2. Azərbaycan Respublikasının gömrük ərazisi xaricindən xüsusi iqtisadi zonaya idxal olunmuş mallar xüsusi iqtisadi zonadan Azərbaycan Respublikasının gömrük ərazisi xaricinə ixrac olunarkən gömrük rüsumları və vergilər tutulmur;

17.3.3. xüsusi iqtisadi zonada istehsal və ya emal olunmuş mallar Azərbaycan Respublikasının gömrük ərazisi xaricinə ixrac edilərkən gömrük rüsumları və vergilər tutulmur;

17.3.4. Azərbaycan Respublikasının gömrük ərazisi xaricindən xüsusi iqtisadi zonaya idxal olunmuş mallar Azərbaycan Respublikasının gömrük ərazisinə xüsusi iqtisadi zonadan idxal edilərkən, bu Qanunun 17.2-ci maddəsinə müvafiq olaraq gömrük rüsumları və vergilər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq tutulur;

17.3.5. xüsusi iqtisadi zonada istehsal və ya emal olunmuş mallar təmir, yekun-tamamlama işləri, nümunələrin sərgisi və digər bu kimi məqsədlərlə Azərbaycan Respublikasının gömrük ərazisinə müvəqqəti idxal edilərkən gömrük rüsumları və vergilər tutulmur;

17.3.6. Azərbaycan Respublikasında mallar xüsusi iqtisadi zonalar arasında idxal-ixrac edilərkən gömrük rüsumları və vergilər tutulmur;

17.3.7. bu Qanunun 17.3.1-17.3.6-cı maddələrində göstərilən hallardan başqa bütün digər hallarda Azərbaycan Respublikasının qüvvədə olan gömrük qanunvericiliyi tətbiq edilir.

17.4. Xüsusi iqtisadi zonanın ərazisində malların (azqiymətli, tezköhnələn, təhlükəli mallardan başqa) saxlanılma müddəti məhdudlaşdırılmır.

17.5. Xüsusi iqtisadi zonaya malların qanunsuz idxalı və ixracının qarşısını almaq məqsədilə xüsusi iqtisadi zonanın sərhədlərində gömrük orqanları tərəfindən gömrük nəzarəti, habelə xüsusi iqtisadi zonanın ərazisinə gətirilən və oradan aparılan mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi həyata keçirilir.

17.6. Xüsusi iqtisadi zonada mallarla əməliyyat aparan rezidentlər gətirilən, aparılan, saxlanılan, hazırlanan, emal edilən, satın alınan və satılan malların uçotunu aparır və həmin mallar barədə Azərbaycan Respublikasının gömrük orqanlarına Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada hesabat verir. Xüsusi iqtisadi zonada malların məruz qaldığı bütün dəyişikliklər uçot sənədlərində öz əksini tapmalıdır.

17.7. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən xüsusi iqtisadi zonanın sərhədlərində gömrük nəzarətinin, gömrük məntəqələrinin fəaliyyətinin, malların gömrük rəsmiləşdirilməsinin, nəqliyyat vasitələrinin və fiziki şəxslərin sərhəddən buraxılma rejiminin sadələşdirilmiş qaydaları müəyyən edilir.

17.8. Malların gömrük rəsmiləşdirilməsi və gömrük anbarlarında saxlanılması üçün gömrük qanunvericiliyinə uyğun olaraq gömrük yığımları alınır.

17.9. Aksizli mallar xüsusi iqtisadi zonaya idxal olunarkən, onlardan Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bütün gömrük ödənişləri tutulur.

17.10. Xüsusi iqtisadi zonanın ərazisində xüsusi razılıq (lisenziya) əsasında gömrük brokerləri və sərbəst anbarlar fəaliyyət göstərə bilərlər. Gömrük brokerlərinin və sərbəst anbarların lisenziyalaşdırılması qanunvericiliyə müvafiq olaraq həyata keçirilir.

### *Maddə 18. Xüsusi iqtisadi zonanın vergi rejimi*

18.1. Xüsusi iqtisadi zonanın rezidentlərinə qanunvericiliklə nəzərdə tutulmuş güzəştli vergi rejimi tətbiq olunur.

18.2. Xüsusi iqtisadi zonanın ərazisində sahibkarlıq fəaliyyəti göstərən, qeydiyyatdan keçmiş rezidentlər malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdikləri vəsaitin məbləğindən (ümumi hasilatın həcmindən) və satışdan kənar gəlirlərindən 0,5 faiz dərəcə ilə vergini (sadələşdirilmiş vergini) hesablayır, rüb qurtardıqdan sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan həmin verginin məbləği haqqında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada vergi orqanlarına bəyannamə verir və həmin müddətdə bu vergini dövlət büdcəsinə ödəyirlər.

18.3. Xüsusi iqtisadi zonanın rezidentləri bu Qanunun 18.2-ci maddəsində nəzərdə tutulmuş vergi və fiziki şəxslərin muzdlu işlə əlaqədar gəlirindən vergi istisna olmaqla, vergi qanunvericiliyi ilə müəyyən edilmiş digər vergiləri ödəməkdən azaddırlar.

18.4. Xüsusi iqtisadi zonanın rezidentinə bu maddədə müəyyən edilmiş vergi rejimi yalnız həmin zonada göstərdiyi sahibkarlıq fəaliyyətinə tətbiq edilir.

18.5. Xüsusi iqtisadi zonanın rezidentinin bu Qanunun 14.5-ci maddəsində göstərilmiş səbəbdən qeydiyyatı ləğv edildikdə, onun əvvəlki dövrlər üzrə vergi öhdəlikləri vergi qanunvericiliyində müəyyən edilmiş qaydada yenidən hesablanır və ödənilir.

18.6. Xüsusi iqtisadi zonanın ərazisində vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarəti, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, digər məsələlər vergi qanunvericiliyi ilə müəyyən edilir.

### *Maddə 19. Xüsusi iqtisadi zonada valyuta və əmək münasibətlərinin tənzimlənməsi*

Xüsusi iqtisadi zonanın ərazisində valyuta və əmək münasibətləri Azərbaycan Respublikasının valyuta və əmək qanunvericiliyinə uyğun olaraq tənzimlənir.

### *Maddə 20. Xüsusi iqtisadi zonanın rezidentlərinə dövlət təminatları*

20.1. Xüsusi iqtisadi zonanın rezidentlərinin xüsusi iqtisadi zonanın ərazisində qoyduqları investisiyaya, əldə etdikləri gəlir və mənfəətə, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə, qanuni qazanılmış vəsaitlərin xaricə köçürülməsi şərtlərinə dair hüquqlarına təminat verilir.

20.2. Dövlət xüsusi iqtisadi zona yaradılarkən, onun ərazisində müəyyənləşdirilmiş xüsusi hüquqi rejimin xüsusi iqtisadi zonanın fəaliyyət göstərəcəyi bütün müddət ərzində qüvvədə qalacağına təminat verir.

### *Maddə 21. Bu Qanunun tələblərinin pozulmasına görə məsuliyyət*

Rezident və qeyri-rezident hüquqi və fiziki şəxslər bu Qanunun müddəalarından irəli gələn tələblərin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 14 aprel 2009-cu il***

***№ 791-IIIQ***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (6 iyun 2009-cu il, № 121) («VES Consultancy» LLC).***

*© VES Consultancy LLC*